# Möhtərəm müəllimimiz HƏSƏN bəy ZƏRDABİNİN vəfatına

Bu sənmisən, ey dahi, o tabut qucağında?
Sönmüşmü həyatın belə məhsullu çağında?
Ey şanlı "Əkinçi!", sən idin gəncliyə rəhbər!
Aldı səni bizdən ölüm, ey nur saçan ülkər!
Ey adlı, şərafətli, fədakar, böyük insan,
Aləmlərə sığmaz vətənə etdiyin ehsan...
Bar verməqdədir bəslədiyin dadlı diləklər,
Almış sənin ətrafını bax, canlı çiçəklər.
Həsrət gözünü aç bir an, ey şanlı mücahid,
Minlərcə bu məktəbli cavanlar buna şahid:
Yordu o zəif cismini zəhmət və məşəqqət,
Doğma vətənin qoynuna gir, ol daha rahət.
Gəlmiş hamı qəlbində kədər son görüşə, bax!
Mümkünmü səni, ey böyük insan, de, unutmaq!

**Abdullah Şaiq**
*"İrşad", 2 dekabr 1907-ci il*